**Kamal Mirsahib oğlu İbrahimov**

**UOT: 368.01:368.1; JEL: G22; I13; J65; G32; P43.**

# İqtisadi proseslərdə sığorta fəaliyyətinin təşkilinin metodoloji xüsusiyyətləri və prinsipləri

***Xülasə***

*Məqalədə iqtisadi proseslərdə sığorta fəaliyyətinin təşkilinin metodoloji xüsusiyyətləri və prinsipləri tədqiq olunmuşdur. Bu məqsədlə iqtisadi proseslərdə sığorta fəaliyyətinin səmərəliliyi, sığorta şirkətlərinin maliyyə sabitliyi problemləri araşdırılmışdır. Sığorta fəaliyyətinin spesifik funksiyaları nəzərə alınmaqla, onun təşkilinin daha optimal metodoloji üsullarının hazırlanması və tətbiqi problemlərinə baxılmışdır. Sığorta fəaliyyətinin təşkili proseslərində maliyyə aspektlərinə diqqət yetirməyin əhəmiyyəti əsaslandırılmışdır. Sığorta şirkətinin potensial imkanları ilə öhdəlikəri arasındaki mütanasibliyin qorunması prinsipləri və meyarları əsaslandırmışdır. Sığorta fəaliyyətinin təşkili proseslərində risklərin öyrənilməsi, təhlil olunması, onların idarəedilməsi mexanizmlərinin adekvatlığının vacibliyi bildirilmişdir. Sığorta bazarında mövcud tendensiyalar, sığorta xidmətlərinin çeşidi və strukturu ilə bağlı məsələlər baxılmışdır. İqtisadi proseslərin qeyri-sabitliyi şəraitində sığorta xidmətlərinin strukturunun yenilənməsinin vacibliyinə diqqət çəkilmişdir. Sığorta fəaliyyətinin güclü maddi-texniki bazasının yaradılması, maliyyə mənbələrini formalaşdırılması, maliyyə sabitliyi və investisiya fəaliyyəti mexanizmlərinin hazırlanması tədbirlərinin vacibliyi göstərilmişdir. Qlobal sığorta çağırışları nəzərə alınmaqla, sığorta fəaliyyətinin təşkilinin metodoloji xüsusiyyətlərinin və prinsiplərinin blok-sxemi verilmişdir. İqtisadi proseslərdə sığorta xidmətlərinin genişləndirilməsi və bununla əlaqədar zəruri tədbirlərin görülməsinin vacibliyi əsaslandırılmışdır. İqtisadi proseslərdə sığorta fəaliyyətinin təşkilinin metodoloji xüsusiyyətləri və prinsipləri üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər**: sığorta sistemi, iqtisadi islahatlar şəraiti, sığorta fəaliyyəti, metodoloji xüsusiyyətlər, metodoloji prinsiplər, sığorta şirkətləri, maliyyə sabitliyi*



## Giriş

İqtisadi proseslərdə sığorta fəaliyyətinin təşkilinin metodoloji xüsusiyyətləri və prinsipləri müxtəlif mürəkkəb məsələlərin sistemli şəkildə baxılmasını və buna yanaşmaların müəyyənləşdirilməsini tələb edir. Sığorta fəaliyyəti spesifik funksiyalara malik olduğundan, onun təşkilinin daha optimal metodoloji üsullarının hazırlanması və tətbiqi vacib şərtlərdəndir. Sığorta fəaliyyətinin təşkili proseslərində maliyyə aspektlərinə diqqət maksimum yüksək səviyyədə saxlanılmalıdır və hesab edirik ki, sığorta fəaliyyətinin maliyyə aspekti bu sahədəki səmərəliliyin əsas zəmini kimi qiymətləndirilməlidir. Son illərdə dünya iqtisadi proseslərində baş verən transformasiyalar, o cümlədən 2008-ci ilin sonlarından başlayan maliyyə böhranı ilə bağlı mənfi səmtlər bu barədə düşünməyi məcbur edir. Belə ki, bu proseslərdə dünya sığorta bazarı da ciddi transformasiyalara və mənfi təsirə məruz qalmışdır. Bunlar isə iqtisadi proseslərdə sığorta şirkətlərində maliyyə sabitliyinin təmin edilməsi üzrə mövcud yanaşmaların təkmilləşdirilməsini, bu problemlərlə bağlı metodoloji üsulların yenilənməsini tələb edir. Başqa sözlə, sığorta bazarında yeni yanaşmalar, yeni metodoloji üsullar bir zərurət kimi yaranmışdır və onların hazırlanması, tətbiq edilməsi problemlərinə strateji diqqətin göstərilməsi vacibdir. Belə olduğu təqdirdə, sığorta

*©Kamal Mirsahib oğlu İbrahimov, i.f.d., Azərbaycan Dövlət İqtisad Universiteti, E-mail: kyamal.ibragimov@mail.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

fəaliyyətinin səmərəliliyinin artırılması və fəaliyyət mexanizmlərinin sığorta bazarının konyunkturasına uyğun olaraq təkmilləşdirilməsi potensialı artırılmış olur.

**İqtisadi proseslərdə sığorta fəaliyyətinin təşkilinin metodoloji yanaşmaları və onların mahiyyəti**

İqtisadi proseslərdə praktiki sığorta fəaliyyəti proseslərində tətbiq olunan mexanizmlərin işləkliyi və səmərəliliyi xüsusi əhəmiyyət kəsb edir [12]. Eyni zamanda, sığorta fəaliyyəti ilə bağlı qarşıya qoyulmuş hədəflərə çatmaq üçün sığorta şirkətinin potensial imkanları ilə öhdəlikləri arasındakı mütənasibliyin qorunması tələb olunur. Bu məqsədlə, sığorta fəaliyyətinin təşkili səviyyəsinin adekvatlığının sığorta bazarının tələblərinə uyğun olaraq ölçülməsi və qiymətləndirilməsi həyata keçirilməlidir [15]. Sığorta fəaliyyətinin təşkilinin metodoloji xüsusiyyətləri və prinsipləri ilə bağlı qeyd etmək olar ki, bunların hazırlanması və müəyyənləşdirilməsi zamanı bir qrup aspektlərin ciddi şəkildə nəzərə alınması vacibdir. Bu aspektlər sırasında - psixoloji, fəlsəfi, maliyyə, iqtisadi, sosial, ekoloji və hüquqi aspektləri daha çox diqqəti cəlb etmişdir. Sığorta fəaliyyətinin əsas mexanizmlərinin müəyyənləşdirilməsində, praktiki fəaliyyət alətlərinin hazırlanmasında daha çox işləkiliyin və səmərəliliyinin təmin edilməsinə diqqət artırılmalıdır. Belə ki, sığorta iqtisadi sistemin əhəmiyyətli bir sahəsi və subyekti kimi səmərəlilik prinsipi əsasında fəaliyyət göstərməlidir və bunun üçün sığorta fəaliyyətinin çoxfunksiyalılıq xüsusiyytlərindından maksimum məhsuldar istifadə təmin olunmalıdır [9]. Sığorta fəaliyyətinin təşkili proseslərində risklərin öyrənilməsi təhlil olunmalı, onların idarəedilməsi mexanizmlərinin adekvatlığı səviyyəsinə uyğun şəkildə sığorta xidmətləri hazırlanmalı və tətbiq edilməlidir. Başqa sözlə, sığorta bazarına çıxarılan sığorta xidməti iqtisadi fəaliyyət proseslərində və insanların həyatında yarana biləcək risklərin, gözlənilməz fəlakətlərdən dəyə biləcək zərərlərin əsasən ödənilməsinə yönəldilmiş səviyyədə təşkil olunmalı və real praktiki mexanizmlərlə təmin edilməlidir.



İqtisadi proseslərdə metodoloji baxımdan tələb olunan məsələlərə, fəaliyyət mexanizmlərinə strateji yanaşma təmin edilmədən, spesifik xüsusiyyətlərə malik sığorta şirkətlərinin fəaliyyətinin dayanıqlılığının gücləndirilməsi və qarşıya qoyulan strateji hədəflərə çatması o qədər də real hesab olunmur. Metodoloji xüsusiyyətlər və prinsiplər sığorta şirkətinin strateji hədəflərinə adekvat olmalı və müasir reallıqları özündə əks etdirməlidir. Yəni, strateji yanaşmaların və strateji mexanizmlərin mövcudluğu şəraitində sığorta şirkətlərinin fəaliyyətinin modelləşdirilməli, antiböhran şəraitində onların maliyyə sabitliyinin təmin edilməsi üçün tələb olunan metodoloji üsullar müəyyənləşdirilməli və onların fəaliyyət alətləri hazırlanmalıdır. Belə olduğu təqdirdə, starteji yanaşmalar və kompleks şəkildə baxılaraq, hazırlanmış mexanizmlər sığorta şirkətinin sığorta bazarında rəqabət qabiliyyətliliyini, sığorta fəaliyyətinin məhsuldarlığını, kəmiyyət və keyfiyyət baxımından adekvatlığını təmin edir, sığorta xidmətlərinin strukturunu diversifikasiyalaşdırılmasına imkan verir. Bununla da, sığorta fəaliyyətinin daha işlək və səmərəli mexanizmlər əsasında təşkili üçün əlverişli şərait yaradır və sığorta şirkətinin manevrlik qabiliyyəti artır. Sığorta bazarı iştirakçılarının inteqrativ əlaqələri genişlənir, maliyyə axınlarının səmərəliliyinin təmin edilməsi üçün birgə səylər yüksəldilir və bazar iştirakçılarının fəaliyyətinin əsas mexanizmlərinin bazar seqmentlərinə uyğun təkmilləşdirilməsi potensialı yaranır.

İqtisadi proseslərdə sığorta fəaliyyətinin təşkilinin metodoloji xüsusiyyətləri və prinsiplərinin fundamental baxılması, nəzəri baxımdan bunlarla bağlı problemlərin araşdırılması, mahiyyətinin açıqlanması, ortaya çıxan problemlər üzrə metodoloji yanaşmaların müəyyənləşdirilməsi və həlli yollarının tapılması vacib şərtlərdəndir. Bunun üçün, sistemli təhlildən yanaşmaqla, əldə edilmiş materialların öyrənilməsi, sintez edilməsi və

iqtisadi proseslərdə sığorta fəaliyyətinin tələb olunan səviyyəyə qaldırılması kontekstində ümumiləşdirilməsi təmin olunmalıdır.

Sığorta fəaliyyətinin əsas mexanizmlərinin hazırlanması və bu mexanizmlərin məhsuldar işləməsinin təmin edilməsi üzrə ümumi strategiyanın formalaşdırılması üçün sığorta bazarında mövcud tendensiyaları, sığorta xidmətlərinin çeşidi və strukturu ilə bağlı məsələləri, sığorta bazarında tələb və təklif arasında proporsional asılılıq səviyyəsi, bazar iştirakçıları ilə bağlı zəruri informasiyaları təhlil edərək strateji qərarlar verilməli və əsaslandırılmış tədbirlər həyata keçirilməli, metodoloji prinsiplər müəyyənləşdirilməlidir. Məlumdur ki, sığorta fəaliyyətinin təşkili ilə bağlı starteji əhəmiyyət kəsb edən məsələlərdən biri də sığorta şirkətlərinin fəaliyyəti proseslərində ortaya çıxan risklərin sistemli şəkildə öyrənilməsi, onların optimal səviyyədə idarə olunması və mənfi fəsadlarının maksimum azaldılmasıdır [14]. Sığorta şirkətində gözlənilən risklər və arzuolunmaz hallar üzrə xəbərdarlıq edilməsi sistemi və mexanizminin fəaliyyət metodikası işlənməli və bununla əlaqədar etibarlı praktiki alətlər hazırlanmalıdır. Başqa sözlə, sığorta fəaliyyəti proseslərinə mənfi təsir göstərə biləcək hər bir amil və elementin fəsadlarının vaxtında müəyyənləşdirilməsi və aradan qaldırılması tədbirlərinin görülməsi ilə bağlı metodoloji yanaşmalar və prinsiplər olmalı, şirkətin heyətinin bu sahədə peşəkarlıq səviyyəsi yüksəldilməli, risk-menecmentin fəaliyyət mexanizmlərinin maksimum səmərəliliyi təmin olunmalıdır.

İqtisadi proseslərin qeyri-sabitliyi şəraitində sığorta xidmətlərinin strukturunun yenilənməsi və bu xidmətlərin dinamikliyinin, çevikliyinin təmin olunması vacib şərtlərdəndir. Belə ki, qeyri-sabit iqtisadi proseslər şəraitidə sığorta xidmətləri vətəndaşların və sahibkarlıq fəaliyyəti subyektlərinin maraqlarının qorunması, onların iqtsadi təhlükəsizliyinin və sabit fəaliyyəinin təmin edilməsi üçün böyük əhəmiyyəti vardır. Bu baxımdan, sığorta xidmətləri qeyd olunan subyektlər üçün əlçatan və səmərəli olmalıdır [2]. Digər tərəfdən, sığorta bazarı iştirakçıları arasında sığorta şirkətinə və sığorta xidmətlərinə inamın artırılması, müştəri məmnunluğunun yüksəldilməsi, sığorta bazarı iştirakçılarının gəlirlilik və faydalılıq prinsipləri əsasında fəaliyyət göstərməsi və onların maraqlarının davamlı şəkildə qorunması prinsipləri üzrə metodoloji yanaşmalar işlənib hazırlanmalı və sığorta şirkətinin fəaliyyət mexanizmlərində yer almalıdır. Analoji metodoloji fəaliyyət üsulları və yanaşmaları, son nəticədə sığorta şirkəti ilə müştərilər arasında qarşılıqlı əlaqələrin əhatəsi və xidmətlərin həcmini artırmaqda əhəmiyyətli rol oynayır [13]. Eyni zamanda, sığorta fəaliyyətinin intensivliyini və səmərəliliyini yüksəldir, sığorta şirkətinin maksimum məhsuldar alternativ maliyyə mənbələrinin formalaşdırılmasını təmin edir, şirkətin maliyyə sabitliyinin təminatı məqsədilə potensialı artırır və sığorta fəaliyyətinin sabit təşkilinə əlverişli şərait yaradır. Sığorta fəaliyyətini həyata keçirən sığorta şirkətlərinin və təşkilatlarının mövcud problemlərinin həll edilməsi, fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində optimallığı özündə əks etdirən mexanizmlərin və metodoloji fəaliyyət prinsiplərin müəyyənləşdirilməsi təmin edilməli, onların ortaya çıxan problemləri həll etmək iqtidarında olub-olmaması potensialı obyektiv olaraq qiymətləndirilməlidir [3]. Fəaliyyət prinsipi kimi qəbul olunan mexanizmlərin və alətlərin sığorta şirkətinin əsas strateji hədəflərinə uyğunluğu məsələlərinə xüsusi önəm verilməlidir. Sığorta haqlarının toplanması və şirkətin likvidlik səviyyəsinin təmin edilməsi, öhdəliklər üzrə ödənişlərin vaxtında həyata keçirilməsi vacib şərtlərdəndir. Ümumilikdə, risksiz və təhlükəsiz fəaliyyət prosesləri olmur, amma əsas məsələ bu kimi təhlükələrin təsirinin azaldırlması üçün preventiv və sistemli tədbirlərin görülməsindən ibarətdir [6].



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**İqtisadi proseslərdə sığorta fəaliyyətinin metodoloji xüsusiyyətləri və prinsiplərinin optimallaşdırılması məsələləri**

İqtisadi proseslərdə sığorta fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi, ilk növbədə sığorta şirkətlərinin özlərinin xidmət səviyyəsinin yaxşılaşdırılmasını, sığorta xidmətlərinin strukturunun genişləndirilməsini, tətbiq edilən mexanizmlərin və alətlərinin məhsuldarlığının yüksəldilməsini tələb edir. Bu baxımdan, sığorta fəaliyyəti subyektləri ardıcıl şəkildə strateji inkişaf hədəflərinə malik olmalı, sığorta fəaliyyətinin güclü maddi-texniki bazasını yaratmalı, maliyyə mənbələrini formalaşdırmalı, maliyyə sabitliyi və investisiya fəaliyyəti mexanizmlərini hazırlamalıdırlar. Sığorta bazarındakı tələb və təklifə uyğun şəkildə sığorta fəaliyyətinin səmərəliliyi prinsiplərinə və meyarlarına əməl edilməsi metodikası hazırlanmalı və onun mühüm prinsiplərinin mütləq şəkildə yerinə yetirilməsi təmin olunmalıdır [10]. Sığorta fəaliyyəti ilə bağlı məsələlərin və fəaliyyət mexanizmlərinin metodologiyasının hazırlanması proseslərində ortaya çıxan problemlərin sistemli şəkildə araşdırılmalı, diqqət mərkəzində saxlanılmalı və adekvat metodoloji yanaşmalar müəyyənləşdirilməlidir. Qeyd edək ki, iqtisadi proseslərdə sığorta xidmətlərinin kəmiyyət və keyfiyyət göstəriciləri təkmilləşdirilməli, sığorta bazarı iştirakçılarının tələb və təkliflərinə, bazar seqmentlərinə uyğunluğu qiymətləndirilməlidir. Sığorta şirkətinin fəaliyyət metodologiyasının yenilənməsi isə sığorta bazarının ümumi konyunkturuna uyğun şəkildə həyata keçirilməlidir və bu halda sığorta şirkətinin özünün iqtisadi maraqları, gəlirlilik və rentabellik səviyyəsinin qorunması maraqları da təmin olunmalıdır [5]. Bütün bu proseslərdə sığorta bazarının intensivlik və səmərəlilik prioritetləri əsas hədəflər kimi müəyyənləşdirilməli və sığorta fəaliyyəti sahəsində dövlət tənzimlənməsi mexanizmləri, dövlət sığorta siyasətinin əsas yanaşmaları müasir reallıqlar və sığorta çağırışları kontekstində yenilənməli, yaxud təkmilləşdirilməlidir. Sığorta şirkətlərinin fəaliyyətinin tənzimlənməsi proseslərinə metodoloji yanaşmalarda dövlətin və cəmiyyətin iqtisadi-siyasi, sosial maraqları nəzərə alınmaqla bərabər, sığorta şirkətlərinin də iqtisadi sabitliyi və onların maliyyə dayanıqlılığı problemləri diqqətdən yayınmamalıdır.



Bunlarla yanaşı, iqtisadi proseslərdə müxtəlif risklər, problemlər mövcuddur və mütəmadi, vaxtaşırı, qəfil bu hadisələrin baş verəcəyini ehtimal etmək, proqnozlaşdırmaq mütləq şərtlərdəndir. Strateji metodoloji yanaşma isə həmin risklər üzrə fəaliyyət prinsiplərinin maksimum səmərəli müəyyənləşdirilməsi və tədbirlər sisteminin nizamlı şəkildə həyata keçirilməsidir. Bu proseslərdə sığorta şirkətləri iqtisadi subyektlərin və cəmiyyətin, insanların maraqlarını qorumaq üçün tələb olunan fəaliyyət metodologiyasına və mexanizmlərinə malik olmalıdırlar. Sığorta fəaliyyətinin daha operativ və çevik olması üçün sığorta şirkətlərində qiymət və tarif siyasətinin əhalinin gəlirləti və yaşayış səviyyəsi ilə uzlaşdırılması məsələlərinə xüsusi önəm verilməlidir. Sığorta biznesinin maliyyə mənbələrinin genişləndirilməsi hesabına tariflərin və qiymətlərin əlçatanlığı təmin olunmalı və bununlada sığorta olunanların sığorta şirkətlərinə inamının artırılması konsepsiyası formalaşdırılmalıdır [4].

İqtisadi proseslərdə sığorta şirkətlərinin maliyyə dayanıqlılığının təmin edilməsi üçün bir sıra məsələlərə xüsusi önəm verilməlidir. İlk növbədə, ölkədə dövlət orqanları ilə sığorta bazarı iştirakçıları arasında əməkdaşlıq münasibətlərinin yüksəldilməsi və sığorta bazarında sağlam rəqabət mühitinin formalaşdırılması təmin edilməlidir. Dövlət iqtisadi islahatları daha da sürətləndirmək üçün sığorta fəaliyyətinin genişləndirilməsi mühitini formalaşdırmalıdır. Bu məsələlər strateji səviyyədə baxılmalı və adekvat qərarlar verilməldir. Əsas şərt kimi isə - sığorta şirkətləri özlərinin müştəri dairəsi ilə əlaqələrini və münasibətlərini uzunmüddətli dövrü əhatə edən strateji yanaşmalar səviyyəsinə qaldırmağı təmin etməlidirlər [8]. Digər tərəfdən, ölkədə ümumi maliyyə bazarı komponentləri sırasında sığorta xidmətlərinin rolunun vacibliyi nəzərə alınmaqla, sığorta şirkətlərinin analoji bazarlarda maliyyə sabitliyinin

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

qiymətləndirilməsi aparılmalı və bunun üçün göstəricilər sistemi müəyyənləşdirilməlidir. Sığorta şirkətlərinin maliyyə sabitliyinin təmin edilməsi üçün sığorta xidmətlərinin rəqabətqabiliyyətliliyi yüksəldilməlidir. İqtisadi islahatların uğurlu aparılması üçün müxtəlif risklərdən qorunmaq lazım gəlir və bu proseslərdə sığorta şirkətinin maliyyə sabitliyinin olması vacib şərtlərdən biri kimi çıxış edir. Belə ki, sığorta şirkətinin maliyyə sabitliyinin yüksək olması müştərilər arasında inamın artmasına imkan verir. Ümumilikdə, maliyyə sabitliyinin özü vacib bir amildir və bu həm də sığorta şirkətlərinin maliyyə sabitliyinin yüksək olması, onların iqtisadi islahatlarla bağlı proseslərdə fəal iştirakı üçün bir zəmanətdir [7]. Bundan əlavə, sığorta şirkətinin maliyyə sabitliyinin təmin edilməsi məqsədilə onun gəlirlilik səviyyəsi sabit olmalı, gəlir mənbələri diversifikasiyalaşdırılmalıdır. Bu məqsədlə, strateji əhəmiyyət kəsb edən məsələlər diqqət mərkəzində saxlanılmalı və əsas sığorta mexanizmlərinin səmərəliliyi təmin olunmalıdır [11]. Şəkil 1-də qlobal sığorta çağırışları nəzərə alınmaqla, iqtisadi proseslərdə sığorta fəaliyyətinin təşkilinin metodoloji xüsusiyyətlərinin və prinsiplərinin blok-sxemini vermişik.

**Şəkil 1.**

**İqtisadi proseslərdə sığorta fəaliyyətinin təşkilinin metodoloji xüsusiyyətlərinin və prinsiplərinin blok-sxemi (müəllif tərəfindən hazırlanmışdır).**




Şəkil 1-in təhlilindən çıxış etsək, qeyd etmək lazım gəlir ki, sığorta fəaliyyətinin əsas mexanizmlərinin və metodoloji yanaşmalarının müəyyənləşdirilməsində sığorta fəalliyyətinin psixoloji, fəlsəfi, maliyyə, iqtisadi, sosial, iqtisadi, ekoloji və hüquqi aspektlərinin mütləq

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

şəkildə qiymətləndirilməsi, fəaliyyət mexanizmlərinin və alətlərinin dərindən öyrənilməsi, mövcud mexanizmlərinin sığorta bazarına uyğun şəkildə baxılması, sığorta xidmətlərinin strukturunun təkmilləşdirilməsi, fəaliyyət proseslərində tətbiqi üçün nəzərdə tutulan mexanizmlərin səmərəlilik səviyyəsinin sığorta bazarı iştirakçılarının maraqlarına uyğun formada tarazlaşdırılması vacib məsələlər kimi xarakterizə olunur. İqtisadi proseslərdə sığorta xidmətlərinin genişləndirilməsi və bununla əlaqədar zəruri tədbirlərin görülməsinə sistemli yanaşma vacib şərtlərdəndir. Belə ki, iqtisadi islahatlarda iştirak edən müxtəlif təsərrüfat subyektləri, müəssisələr və təşkilatlar çoxlu sayda risklərlə üzləşirlər və bunlarla əlaqədar olaraq fəaliyyət dairəsinin daha təhlükəsiz olması üzrə mexanizmlərin işlənib hazırlanması, başqa sözlə, risklərin sığortalanması lazım gəlir. Son illərin maliyyə qeyri-sabitliyi bu sahədəki problemləri daha qabarıq şəkildə üzə çıxarımışdır. Dünya maliyyə böhranının mənfi fəsadları baxımından, ölkəmizdə də maliyyə sisteminin qeyri-sabitliyi gec də olsa özünü büruzə vermişdir. 2015-2016-cı illərdə dünya bazarlarında neftin qiymətinin bir neçə dəfə aşağı düşməsindən sonra Azərbaycanda maliyyə qeyri-sabitliyi baş vermiş, milli valyuta-manat ikiqat devalvasiyaya uğramış, kredit resurslarının ayrılmasında məhdudiyyətlər yaranmış, aparılan iqtisadi islahatlarda riskli amillər artmış və onların sığortalanması zərurəti kifayət qədər aktuallığı ilə diqqət çəkmişdir. Bundan əlavə, sığorta şirkətlərinin ənənəvi istifadə etdiyi metodoloji fəaliyyət yanaşmalarının, bunlarla bağlı mövcud mexanizmlərin yenilənməsi və sığorta bazarının konyunkturasına adekvat olaraq təkmilləşdirilməsi tədbirləri görülməlidir. Bazar iqtisadiyyatı şəraitində sığorta fəaliyyətininin səmərəliliyini əks etdirın mühüm göstəricilərin - gəlirlilik və rentabellik səviyyəsinin qorunması hesabına sığorta şirkətinin fəaliyyətinin sabitliyinə nail olunması üçün davamlı və sistemli tədbirlərin reallaşdırılması, sığorta fəaliyyətinin inkişafı strategiyası olmalı və bu fəaliyyət istiqamətlərinin metodoloji üsullarının, yanaşmalarının qlobal maliyyə və sığorta bazarları kontekstində yenilənməsi və təkmilləşdirilməsi təmin olunmalıdır. Ölkəmizdə iqtisadi islahatların hazırkı dövründə maliyyə və sığorta bazarlarının tənzimlənməsi və iqtisadi islahatların sürətləndirilməsi üçün maliyyə təminatının genişləndirilməsi, maliyyə xidmətlərinin, o cümlədən sığorta xidmətlərinin çeşidinin dövrün tələblərinə uyğunlaşdırılması tədbirləri görülməkdədir. Bu istiqamətdə prioritet vəzifələr və əsas hədəflər ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə öz əksini tapmışdır [1]. Sığorta xidmətləri bazar münasibətlərinin genişləndirilməsinə və işgüzar fəallığının yüksəlməsinə, həmçinin investisiya mühitinin yaxşılaşdırılmasına xidmət edir.

**Nəticə**

İqtisadi proseslərdə sığorta şirkətinin strateji maliyyə mexanizmlərinin hazırlanması və maliyyə sabitliyinin təmin edilməsi üzrə ümumi strategiyanın formalaşdırılmasının həyata keçirilməsi xüsusi zərurətdən irəli gəlir. Bunun üçün sığorta şirkətləri sığorta bazarında mövcud tendensiyaları, sığorta xidmətlərinin çeşidi və strukturu ilə bağlı məsələləri, sığorta bazarında tələb və təklif arasında proporsional asılılıq səviyyəsi, bazar iştirakçıları ilə bağlı zəruri informasiyaları təhlil edərək strateji qərarlar verməli və əsaslandırılmış tədbirlər görməlidirlər. Azərbaycanda iqtisadi islahatların intensivləşdiyi bir şəraitdə, sığorta şirkətlərinin maliyyə mənbələrinin genişləndirilməsi və onların iqtisadi islahatlarda rolunun artırılması problemləri də kifayət qədər aktualdır. Təəssüf ki, iqtisadi islahatlar aparılan fəaliyyət istqamətlərinin heç də hamısında çevik sığorta xidmətlərini təklif etmək mümkün deyildir. Xüsusilə, regionlarda kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, saxlanılması, tədarükü və istehlakçılara çatdırılması proseslərinin bütün mərhələləri üzrə etibarlı sığorta təminatının yaradılması və gücləndirilməsi mexanizmlərinin fəal tətbiqnə zərurət qalmaqdadır. Düzdür, hazırda ölkəmizin sığorta sisteminin təkmilləşdirilməsi üzrə tədbirlər

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

həyata keçirilməkdədir və 2020-ci ilədək olan dövr üçün yeni sığorta strategiyasının tətbiq olunacağı gözlənilir. Amma, hələ ki, maksimum çevik və etibarlı, cəlbedici sığorta xidmətlərinin göstərilməsi prosesləri təmin edilməmişdir və bunlarla bağlı bir sıra məsələlərə diqqəti yönəltmək istərdik: ölkədə mövcud sığorta qanunvericiliyi bazası yenilənməli və daha da təkmilləşdirilməldir, iqtisadi islahatların hədəflərinə və prioritetliyinə uyğun şəkildə sığorta xidmətləri paketi hazırlanmalı və fəal şəkildə tətbiq edilməlidir, iqtisadi proseslərdə təklif edilən sığorta xidmətləri kifayət qədər cəlbedici və əlçatan olmalıdır və s.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.
2. Айнетдинова Н.Х. Страхование в условиях кризиса. Экономические науки, 2009, №1, 119 с.
3. Балакерева В.Ю. Проблемы развития отрасли страхования. В.Ю.Бакалерева. Финансы, 2011, № 8, С. 41-45.
4. Вахрамеева Н.С. Модели развития страхования в регионах мира. Молодой ученый. 2015. №4. С. 349-352.
5. Гайдукевич Г.В. Институционализация защиты экономических интересов страховых компаний. Дисс. канд. экон. наук. Ярославль, 2007, 159 с.
6. Гидденс Э. Судьба, риск, и безопасность. THESIS, 1994, №5, С. 41-49.
7. Евлахова Ю.С. Определение глобальных системно значимых финансовых институтов в страховом и фондовом секторах финансового рынка. Журнал «Финансовый журнал», №5, 2015. С.113-119.
8. Колесникова Т.В. Взаимосвязь финансовой устойчивости и конкурентоспособности страховой организации. Т. В. Колесникова. Известия Иркутской государственной экономической академии. 2015. № 3, С. 34-42.
9. Коломиец Л.Г. Страхование как самостоятельная экономическая категория. экономические науки, 2008, №3(40), С. 53-58.
10. Куликов С.В. Обеспечение финансовой устойчивости страховой организации: методы и инструментарий. Дисс. канд. экон. наук. Новосибирск, 2003. 176 с.
11. Писаренко Ж.В., Кузнецова Н.П. Регулирование страховой деятельности. Москва. Издательство Юрайт, 2014. 437 с.
12. Пылова О.К. Методы исследования инновационных процессов в страховых компаниях. Дисс. канд. экон. наук. Москва, 2010, 146 с.
13. Прокопьева Е.Л. Основные тенденции развития страхового рынка и факторы, влияющие на него // Страховое дело, 2010, №7, С. 10-15.
14. Слепухина Ю.Э. Риск как экономическая категория: распределение и перераспределение рисков в страховании // Страховое дело, 2008, №9, С. 60-71.
15. Шахов В.В. Страхование. Москва, ЮНИТИ-ДАНА, 2011, 509 с.




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Кямал Мирсахиб Ибрагимов***

***Методологические особенности и принципы организации страховой деятельности в экономических процессах***

***Резюме***

*В статье исследованы методологические особенности и принципы организации страховой деятельности в экономических процессах. С этой целью исследована эффективность страховой деятельности и проблемы финансовой стабильности страховых организаций в условиях экономических реформ. Рассмотрены проблемы подготовки и применения максимума оптимальных методологических способов организации страховой деятельности с учетом ее специфических функций. Рассмотрены принципы и критерии соблюдения соотношения между потенциальными возможностями и обязательствами страховых организаций. Отмечена важность анализа адекватности управления механизмами рисков в процессах организации страховой деятельности. Дана блок-схема методологических особенностей и принципов организации страховой деятельности с учетом финансовых вызовов. Обоснована важность осуществления необходимых мероприятий и расширения структуры страховых услуг в условиях экономических реформ. Подготовлен ряд рекомендаций и даны предложения по методологическим особенностям и принципам организации страховой деятельности в экономических процессах.*

***Ключевые слова:*** *система страхования, экономические процессы, страховая деятельность, методологические особенности, методологические принципы, страховые компании, финансовая стабильность.*

***Kamal Mirsahib Ibragimov***

***Methodological features and principles of the organization of insurance activity in economic processes***

***Resume***

*Methodological features and principles of the organization of insurance activity in economic processes are investigated in the article. The efficiency of insurance activity and a problem of financial stability of insurance companies in the conditions of economic reforms is studied for this purpose. Problems of preparation and application of a maximum of optimum methodological ways of the organization of insurance activity taking into account its specific functions are considered too. Importance of financial aspects in processes of the organization of insurance activity is proved. The principles and criteria of observance of a ratio between potential opportunities and obligations of insurance companies are considered. Importance of the analysis of adequacy of control of mechanisms of risks in processes of the organization of insurance activity is investigated. The flowchart of methodological features and principles of the organization of insurance activity taking into account financial situation is given. Importance of implementation of necessary actions and expansion of structure of insurance services in the conditions of economic reforms is proved. A number of recommendations, offers on methodological features and the principles of the organization of insurance activity in economic processes are given in the end of the article.*

***Keywords:*** *system of insurance, economic processes, insurance activity, methodological features, methodological principles, insurance companies, financial stability.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:14.05.2019.***
***Çapa qəbul olunub:17.05.2019.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*